# HACIQABUL

№ 07 (666)

29 aprel 2017-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# Birinci rübdə iqtisadiyyatın dayanıqlığı təmin olunub

***Aprelin 18-də rayon İcra Hakimiyyətində 2017-ci ilin birinci rübündə Hacıqabul rayonunun sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş hesabat yığıncağı keçirildi***






***Yığıncaqda RİHB-nın şəhər, qəsəbə, kənd İƏD üzrə nümayəndələri, bələdiyyə sədrləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayonunun idarə, müəssisə rəhbərləri, sahibkarlar iştirak edirdi.***

Hesabat yığıncağını rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov açaraq aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında yürüdülən fikir və müddəaları yığıncaq iştirakçılarının diqqətinə çatdırdı. RİH Başçısı vurğuladı ki, bu ilin birinci rübündə ölkəmizdə iqtisadi inkişafın təmin olunduğunu, sosial məsələlərin həllini tapdığını, ordu quruculuğunun uğurla getdiyini bildirən Prezident İlham Əliyev iclasda qeyd etmişdir ki, 2017-ci il bizim üçün uğurlu il olacaq.

İqtisadiyyatımızın əsas göstəricilərinə nəzər salan dövlətimizin başçısı ilin ilk 3 ayı ərzində qeyri-neft sektorunun 2,4 faiz artığını, qeyri-neft sənayesində artımın 2 faiz səviyyəsində olduğunu, kənd təsərrüfatının 3,5 faiz artdığını, bitkiçiliyin 20 faizdən çox artdığını, birinci rübdə valyuta ehtiyatlarımızın 38,5 milyard dollar təşkil etdiyini diqqətə çatdırıb. Birinci rübdə 85 min yeni iş yerinin yaradıldığını, yeni iş yerlərinin təkcə dövlət sektorunda deyil, özəl sektorda da davam etdiyini, özəl sektorda 40 mindən çox yeni iş yerinin yaradıldığını bildirən dövlətimizin başçısı bunu iqtisadi inkişafın təzahürü adlandırıb.

Sənaye istehsalı və kənd təsərrüfatı sahələrinin prioritet sahələr olduğunu bildirən dövlətimizin başçısı kənd təsərrüfatının inkişafı üçün bu il 150 min hektar yeni torpağın suvarılmasının nəzərdə tutulduğunu, yeni zavodların istifadəyə veriləcəyini qeyd edib və görüləcək işlərin bu sahədə artıma səbəb olacağını vurğulayıb.
Sonra dövlətimizin başçısı bu ilin sonuna qədər müsbət dinamikanın saxlanılmasının vacibliyini bildirib.

RİH Başçısı 2017-ci ilin birinci rübündə bütün sahələrdə əldə olunan nailiyyətlərin məhz ölkə prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin məntiqi nəticəsi olduğunu nəzərə çatdırdı. Qeyd etdi ki, möhtərəm Prezidentimizin 27 fevral 2014-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramında qarşıya qoyulan məqsədlərin reallaşması, nəzərdə tutulmuş layihələrin icra edilməsi nəticəsində iqtisadi rayonlar yeni inkişaf mərhələsinə qədəm qoyur. Ötən müddət ərzində respublikamızın digər rayonları kimi Hacıqabulda da mühüm işlər görülmüşdür.

Sonra 2017-ci ilin birinci rübündə Hacıqabul rayonunun sosial-iqtisadi inkişafının yekunları barədə RİHB-nın məruzəsi dinlənildi.

Məruzədə qeyd olundu ki, 2017-ci ilin birinci rübündə rayon üzrə ümumi məhsul buraxılışının həcmi 51.1 milyon manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 7.4 milyon manat və ya 17,1% çoxdur. Məhsul buraxılışı həcmində qeyri-dövlət sektorunun payı 66,8 % təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,5 % çoxdur. Bu ilin 3 ayında kənd təsərrüfatı məhsulunun həcmi 2 087.6 min manat artaraq 23 843.0 min manat, sənayedə məhsul buraxılışının həcmi 402.0 min manat artaraq 1 680.6 min manat, ticarətdə məhsul buraxılışının həcmi 155.0 min manat artaraq 18 148.0 min manat olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatında 9,6 %, sənayedə 31,4 %, ticarətdə 0,9 % artım müşahidə edilmişdir.

Hesabat dövründə pərakəndə əmtəə dövriyyəsi 7 506.01 min manat və ya 16,1% artaraq 54 026.0 min manat, iaşə dövriyyəsi 125.0 min manat və ya 15,1% artaraq 955.0 min manat, əhaliyə göstərilmiş pullu xidmətlərin həcmi 845.0 min manat və ya 12,2% artaraq 7 745.0 min manat, yük daşınmalarının həcmi 7.0 min ton və ya 12,1% artaraq 65.0 min ton, sərnişin daşınmalarının həcmi 82.0 min nəfər və ya 6,4 % artaraq 1 354.0 min nəfər olmuşdur.

2017-ci ilin I rübündə Hacıqabul rayonunda iqtisadiyyatın bütün sahələrinə yönəldilmiş əsas kapitala investisiyaların ümumi həcmi keçən ilin müvafiq dövrünə nisbətən 4 753.1 min manat və ya 364,8 % artaraq 6 548.0 min manat olmuşdur.

Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Rayonda aqrar islahatların uğurla həyata keçirilməsi kənd təsərrüfatının çoxsahəli inkişaf etdirilməsinə, bu sahədə qazanılan uğurları ilbəil artırmağa zəmin yaradır.

Artıq rayonda bu ilin məhsulu üçün 15 820 hektar taxıl əkilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2027 hektar çoxdur. Bu sahələrin 8950 hektarını buğda, 6870 hektarını isə arpa əkini təşkil edir. Hesabat dövründə 369 hektarda tərəvəz, 648 hektarda bostan, 40 hektarda kartof əkilmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə tərəvəz əkini 1 hektar, bostan əkini 1 hektar çox olmuşdur.

Hesabat dövründə rayonda 5 040 ton süd, 2 244 ton ət, 86 101.0 min ədəd yumurta istehsal edilmişdir.

Rayon üzrə iribuynuzlu heyvanların baş sayı 504 baş və ya 1,3 % artaraq 38 516 başa, xırda buynuzluların sayı isə 1062 baş və ya 0,8 % artaraq 136 242 başa çatmışdır.

"Aqrolizinq" vasitəsilə bu ilin birinci rübündə kənd əməkçilərinə 173,85 ton 70% güzəştlə müxtəlif mineral gübrələrin satışı həyata keçirilmişdir.

"Regionların sosial-iqtisadi inkişafı" Dövlət Proqramının icrası olaraq 2007-ci ildə tikintisinə başlanılmış, mənbəyi Ağsu rayonu ərazisində Yuxarı Şirvan kanalının qolundan su götürən və su keçirmə qabiliyyəti 5 m3/san olan 28,2 km-lik Hacıqabul magistral beton kanalı və Padar-Qarasu ərazisində müxtəlif sərfiyatlı 21,2 km təsərrüfat daxili qol kanallar tikilib başa çatdırılmışdır. Ərazidə əkilmiş 3501 ha taxıl əkinlərinin suvarılması bu kanal vasitəsilə həyata keçirilmişdir. Eyni zamanda bu ərazidə əkiləcək 850 ha pambığın, 526 ha şəkər çuğundurunun, 695 ha qarğıdalının, 100 ha bostan-tərəvəzin, 235 ha yem bitkilərinin və 70 ha həyətyanı əkinlərin suvarma suyu ilə təminatı Hacıqabul magistral kanalı vasitəsilə həyata keçiriləcəkdir.

Əkinlərin su təminatının yaxşılaşması üçün rayon Suvarma Sistemləri idarəsi tərəfindən cari ilin I rübündə 131 km-ə yaxın magistral və təsərrüfatdaxili kanallarda lildən təmizləmə işləri yerinə yetirilmişdir. Əkinlərin suvarılması üçün su mənbələrindən 14.07 milyon kub/metr su götürülmüş, su ayrıclarından Sudan İstifadəedənlər Birliklərinə 11.04 milyon kub/metr su verilmişdir. Baş Şirvan Kollektorunun İstismarı İdarəsi tərəfindən Hacıqabul rayonunun təsərrüfatdaxili və təsərrüfatlararası kollektor-drenaj şəbəkələrində uzunluğu 8760 p/metr olmaqla 21 940 kub/metr həcmində lildən təmizləmə işləri aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatının daha da inkişaf etdirilməsi məqsədilə verdiyi tapşırıq və tövsiyələrin, qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi, pambıq istehsalının artırılması, baramaçılığın inkişafı, yeni aqroparkların salınması istiqamətində rayonumuzda bir sıra işlər görülmüş və bu işlər hal hazırda da davam etdirməkdədir.

Cari ildə rayonumuzda 1203.9 ha sahədə pambıq əkiləcəkdir ki, bu da keçən ilin pambıq əkinindən 677.9 ha və ya 2.3 dəfə çoxdur. 800 ha sahədə pambıq əkilməsi üçün 26 istehsalçı ilə "MKT İK" MMC arasında, 403.9 ha sahədə pambıq əkilməsi üçün 12 istehsalçı ilə "Hacıqabul KT" MMC arasında müqavilələr bağlanmışdır. Hal-hazırda intensiv səpin işləri həyata keçirilir. Məqsədimiz əkiləcək pambıq sahələrinə yüksək qaydada aqrotexniki qulluq göstərməklə 2400 tondan çox pambıq istehsal etməkdir.

Rayonda baramaçılığın inkişafı da mühüm əhəmiyyət kəsb edən sahələrdən biridir. Bu məqsədlə keçən ilin payızında rayon ərzisində 28 000 ədəd tut (çəkil) ağacının əkilməsi həyata keçirilmişdir. Əkilmiş tut tinglərinə aqrotexniki qaydada qulluq edilir, becərilir və vaxtında suvarılır. Cari ildə rayonda 2 ton barama istehsalı nəzərdə tutulmuşdur. Barama istehsalı ilə məşğul olacaq şəxslərin müəyyənləşdirilməsi və hazırlıq işləri aparılmışdır.

Rayonda aqroparkların yaradılması istiqamətində bir sıra işlər həyata keçirilmişdir.

Hacıqabul rayonunun Padar ərazisində 1625 hektar sahədə iri əkinçilik təsərrüfatı yaradılmışdır. Bu təsərrüfatda infrastruktur yaradılmış, pivot suvarma sistemi quraşdırılmış, texnikalar alınmış, ofis, anbar, işçilər üçün yeməkxana, texnikalar üçün qaraj tikilmişdir. 700 ha sahədə buğda, 526 ha sahədə şəkər çuğunduru əkilmişdir. 100 ha sahədə pambıq, 95 ha sahədə qarğıdalı, 157 ha sahədə soya əkilməsi həyata keçiriləcəkdir. Aqroparkda 2000 başlıq heyvandarlıq kompleksinin tikintisi nəzərdə tutulmuşdur.

İcra Hakimiyyəti hesabat dövründə vətəndaşların qəbulu işini ciddi nəzarətə götürmüşdür. 2017-ci ilin birinci rübündə İcra Hakimiyyətinin Başçısı tərəfindən 149 nəfər vətəndaş qəbul edilmişdir ki, onların 88 nəfəri səyyar qəbullar zamanı dinlənilmişdir. Qəbul zamanı qaldırılan bir çox təklif və iradlar yerindəcə həll olunmuş, bəzilərinin icrası ilə bağlı aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinə tapşırıqlar verilmişdir.

Hesabat dövründə də rayonun sosial-iqtisadi göstəriciləri, keçirilmiş səyyar qəbullar və müxtəlif səpkili tədbirlər barədə obyektiv məlumatlar sektor tərəfindən müəyyən edilmiş qrafikə əsasən RİAİS sisteminə yerləşdirilmişdir.

Hacıqabullular möhtərəm Prezidentimizin rayonumuza göstərdiyi diqqət və qayğıya özlərinin yüksək əmək və siyasi fəallığı ilə cavab verərək rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində ardıcıl işlər həyata keçirəcəklər.

Məruzə ətrafında rayon Maliyyə Şöbəsinin müdiri Vüqar İbrahimov, rayon Suvarma Sistemləri İdarəsinin rəisi İbrahim İbrahimov, rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Nurbala Mirzəyev, Meyniman kənd İƏD üzrə nümayəndə Cavid Vəliyev çıxış etdilər.

Hesabat yığıncağında məruzə və çıxışlar dinlənilərək RİH Başçısının 2017-ci ilin birinci rübündə gördüyü işlər qənaətbəxş hesab edildi. Müvafiq qərar qəbul olundu.

***"Hacıqabul"***

# Yeni Azərbaycan Partiyası (YAP) Hacıqabul rayon təşkilatının X konfransı keçirildi





**_Konfransdan əvvəl tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Hacıqabul şəhərindəki abidəsini ziyarət edərək önünə əklil və gül dəstələri qoydular._**

Heydər Əliyev Mərkəzində keçirilən konfransda ərazi ilk partiya təşkilatlarından seçilmiş nümayəndələr iştirak edirdi.

YAP rayon təşkilatının sədri Hafis Bəşirov hesabat məruzəsi ilə çıxış edərək bildirdi ki, ulu öndər Heydər Əliyevin bir misilsiz şah əsəri günügündən inkişaf edən müstəqil Azərbaycan dövlətidirsə, digər böyük və unikal əsəri 1992-ci il noyabr ayının 21-də zamanın zəruri tələblərindən yaranan Yeni Azərbaycan Partiyasıdır: "Yeni, müstəqil Azərbaycan uğrunda" devizi ilə siyasi arenaya daxil olan YAP Azərbaycanın şərəfli keçmişinin, bugünkü uğurlarının və parlaq gələcəyinin müəllifinə çevrilib. Ümummilli lider Heydər Əliyevin nurlu zəkasından yaranan və cənab Prezident İlham Əliyevin müdrik və qətiyyətli fəaliyyəti ilə güclənən, fenomenləşən Yeni Azərbaycan Partiyası xalqımızın güvənc yerinə, ölkəmizin qurtuluş simvoluna, tərəqqi rəmzinə çevrilib. Bu gün YAP Azərbaycanın siyasi palitrasında xalq tərəfindən dəstəklənən, böyük nüfuza malik olan qüdrətli siyasi qüvvədir. YAP həm üzvlərinin sayının 700 min nəfərə yaxınlaşması, həm də xalqımızın qabaqcıl ziyalılarını, intellektual potensialını öz sıralarında birləşdirmək baxımından cəmiyyətin alternativsiz partiyasıdır.

H.Bəşirov qeyd etdi ki, Yeni Azərbaycan Partiyasının qazandığı qələbələrdə, əldə etdiyi uğurlarda 1995-ci il mart ayının 18-də təsis olunan, sıralarında 4940 partiya üzvü və 110 ərazi ilk partiya təşkilatını birləşdirən Hacıqabul rayon təşkilatının özünəməxsus payı vardır: "Sıralarını ildən-ilə genişləndirən, daha artıq seçki təcrübəsi toplayan YAP Hacıqabul rayon təşkilatı keçirilən bütün seçkilərə öz layiqli töhfəsini verib. Rayon təşkilatı IX konfransdan ötən müddət ərzində nizamnamə tələbləri çərçivəsində fəaliyyət göstərərək partiyanın İcra Katibliyinin tapşırıq və tövsiyələrini böyük məsuliyyət hissi ilə yerinə yetirib. Rayon təşkilatının sıralarında 2047 nəfər qadın, 1239 nəfər gənc üzvümüz var. Təşkilat daxilində partiya sıralarına qəbul yüksələn xətlə davam etməkdədir. Hesabat dövründə partiya sıralarına 723 nəfər üzv qəbul edilib. Xüsusən gənclərin Yeni Azərbaycan Partiyası sıralarına can atması olduqca təqdirəlayiq və sevindirici haldır. Ulu öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyasına xidmət etmək Vətənə, millətə, müstəqil Azərbaycan dövlətinə xidmət etməkdir" sözləri rayon təşkilatının hər bir üzvünün şüarına, devizinə çevrilib. Hesabat dövründə YAP rayon təşkilatı İdarə Heyətinin 64, Şurasının isə 17 yığıncağı keçirilib. Bu yığıncaqlarda ərazi ilk partiya təşkilatlarının, Gənclər Birliyinin və Qadınlar Şurasının sədrlərinin hesabatlarının dinlənilməsi, partiya sıralarına qəbul, partiyadaxili işlərin vəziyyəti və s. məsələlərə baxılıb".

Konfransda çıxış edən YAP icra katibinin müavini, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatındakı rolu, partiyanın gördüyü işlər, keçdiyi inkişaf yolu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlarda iştirakı barədə geniş söhbət açıb: "Yeni Azərbaycan Partiyası ilk gündən ölkəmizin müstəqilliyinin qorunması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadiyyatın inkişaf etdirilməsi, demokratik təsisatların bərqərar olmasında siyasi flaqman rolunu öhdəsinə götürüb. YAP Azərbaycan siyasi palitrasında milli siyasi iradəni təmsil edən avanqard siyasi qüvvə olaraq xalqımızın ali mənafeyini özünün fəaliyyəti boyu dolğun ifadə etməkdədir".

Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov çıxış edərək bildirdi ki, YAP rayon təşkilatı veteranlarımızın təcrübəsini, qadın üzvlərimizin cəmiyyətdə yüksək nüfuzunu, gənclərimizin enerjisini, onların internet məkanında fəallığını seçki kampaniyalarının uğurla başa çatmasına, cənab Prezident İlham Əliyevin apardığı müdrik siyasətin, gördüyü nəhəng işlərin təbliğinə istiqamətləndirib: "Rayon təşkilatının üzvləri çalışdıqları kollektivdə öncül mövqedə olduqları kimi, rayonun ictimai-siyasi həyatında da olduqca fəal iştirak edirlər. Bu gün Hacıqabul rayonu görkəmini tanınmaz şəkildə dəyişir. Əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində işlər görülür. Bütün bunlar Yeni Azərbaycan Partiyasının xalq arasında nüfuzunun artmasına və etimadının yüksəlməsinə rəvac verir. YAP Hacıqabul rayon təşkilatının hər bir üzvü fəxr edir ki, dövlətimizin cənab İlham Əliyev kimi rəhbəri vardır".

Sonra konfransda YAP rayon təşkilatı Gənclər Birliyinin sədri Saleh Ələsgərov, partiyanın rayon təşkilatı Qadınlar Şurasının sədri Zeynəb Yunuslu, rayon Təhsil şöbəsi ərazi ilk partiya təşkilatının sədri Şükür Məmmədov, Mədəniyyət şöbəsi ərazi ilk partiya təşkilatının sədri Elnur Əmiraslanov çıxış etdilər. Çıxışçılar YAP Hacıqabul rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyətini qənaətbəxş hesab etdiklərini diqqətə çatdırdılar.

YAP Hacıqabul rayon təşkilatının X konfransının qətnamə layihəsi oxunaraq təsdiq edildi, təşkilati məsələlər müzakirə olundu. Rayon təşkilatının 35 nəfər tərkibdə yeni Şurası və 15 nəfərdən ibarət İdarə Heyəti, eləcə də nəzarət-təftiş qrupu seçildi. Hafis Bəşirov yenidən yekdilliklə YAP Hacıqabul rayon təşkilatının sədri seçildi.

Konfransda Yeni Azərbaycan Partiyasına yeni qəbul olunmuş bir qrup gəncə partiyanın üzvlük vəsiqələri təqdim olundu.

Sonda konfrans iştirakçıları adından Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olundu.

## *9 May-Böyük Qələbənin 72 illiyi*

# İki cəbhənin əsgəri

***Bizi bir amal birləşdirirdi- Vətənimizi faşizm taunundan xilas etmək***



**Mirvari xanım əsgər yoldaşları arasında sağdan 2-ci**

**_Böyük Vətən müharibəsi başlayanda Mirvari Əsəd qızı Nəsirovanın 17 yaşı var idi. O, Qazıməmməd qəsəbəsində (indiki Hacıqabul şəhəri) 7 saylı dəmir yol məktəbində ibtidai sinif müəllimi işləyirdi. Lakin Vətən torpaqları alman faşistlərinin təcavüzünə məruz qalanda igid, qeyrətli oğul-qızlarımızla bir sırada gənc Mirvari də Vətənin çağırışına biganə qala bilməzdi. O, könüllü olaraq cəbhəyə yollandı. Lakin arxa cəbhədə yaranan ehtiyacı nəzərə alaraq Mirvari Nəsirovanı Bakı şəhərinin qospital və xəstəxanalarında yaralılara kömək məqsədi ilə saxladılar. 1942-ci ildə Keşlədə, Qaraşəhərdə, Bakının digər yerlərində qospitallarda cəbhədən yaralanıb gələn oğul və qızlarımızın müalicəsində tibb işçilərinə kömək edirdi. Çiynində feldşer çantasını həmişə hazır vəziyyətdə saxlayan Mirvari şəfqətli əlləri ilə neçə-neçə əsgər oğullarımızın dadına çatırdı._**

Qarşımızda bir şəkil var. Bu şəkildə Mirvari hərbi formada müxtəlif xalqların rus, belarus, türkmən, gürcü, özbək xalqlarının nümayəndələri ilə bir sırada əyləşib.Müharibənin ağır illərinin yadigarı olan bu şəkil sanki Mirvari müəlliməni bir daha o illərə apardı.

- O vaxt mənimlə bir qospitalda çalışan müxtəlif millətlərin nümayəndələrini bir amal, bir məqsəd daha da birləşdirmiş, mehribanlaşdırmışdı: Bəşəriyyəti faşizm taunundan xilas etmək. Azərbaycanın mərd oğulları da Böyük Vətən Müharibəsində qeyri-adi şücaət və qəhrəmanlıqlar göstərərək faşizm üzərində Böyük tarixi Qələbənin qazanılmasında əhəmiyyətli rol oynadılar. Mehdi Hüseynzadə, Hüseynbala Əliyev, Həzi Aslanov, Gəray Əsədov, İsrafil Məmmədov,Əhmədiyyə Cəbrayılov, Züleyxa Seyidməmmədova, Dürrə Məmmədova, Ziba Qəniyeva, Adil Quliyev, Məzahir Abbasov- yüzlərlə oğul-qızlarımız düşmənə sarsıdıcı zərbələr endirmiş, tarixi Qələbə gününü yaxınlaşdırmışlar. Böyük Vətən Müharibəsi cəbhələrində Azərbaycanın 400 mindən çox igid övladları həlak olmuşdur.

Mirvari xanım köks ötürərək keçmişə boylanır, bir qədər kövrək məqamları xatırlayır:



**Şəkildə 18 yaşlı Mirvari Nəsirova**

- Özüm də müəllim olmuşam, 60 ilə yaxın bir məktəbdə- 7 saylı (o vaxt 10 saylı) Hacıqabul şəhər dəmir yol məktəbində ibtidai sinif müəllimi işləmişəm. Müharibə illərində Səməd Vurğunun "Ananın öyüdü" şeri dilimizin əzbəri idi:

*Geyib əsgər paltarını, silahlandı qəhrəman,*  
*Onun polad sinəsinə sığışmadı ürəyi.*  
*Dayan!- deyib, yaxın gəldi, öpdü onun alnından,*  
*Yay gününün xoş səhəri, bir də dağlar küləyi.*  
*Igid balam! Hərçəndi ki, öz ananam mən sənin,*  
*Çörəyilə böyütmüşəm bizim ana Vətənin.*  
*Payız vaxtı bağçamızın heyvaları dəyəndə,*  
*Şaftalılar şirələnib budağını əyəndə,*  
*Göndərərəm sovqatını-sənin də öz payını,*  
*Sən də artır öz əlinlə zəfərlərin sayını.*  
*Get, düşmənin qabağında igid tərpən vüqarla*  
*Tüfəngini təmiz saxla, atını da tumarla.*

Hazırda oğlu Aydın və nəvələri Mirvari müəllimənin qulluğunda durur, onun qayğısını çəkirlər. Böyük Vətən Müharibəsində arxa cəbhədə fədakarlıqla çalışan qocaman pedaqoq, ağbirçək ana Mirvari Nəsirovaya cansağlığı arzulayırıq.

***Nazim Fətixanoğlu***

# Tariximiz, ədəbiyyatımız, musiqimiz...

***Hər daşı canlı tarix olan bu müqəddəs torpağın hər qarışında millətimizin keçmişi əks olunur. Kim olmağımız, hardan gəlib hara getməyimizin cavabı, sevgimizin, nifrətimizin, gücümüzün, səbrimizin yaddaşı, musiqimizin səsi var bu torpaqlarda.***

Mədəniyyətimizin istənilən sahəsinə nəzər saldıqda, biz zəngin mədəni irsin varisi olmağımızın şahidiyik. Azərbaycan xalqı öz mədəni və tarixi irsinə çox bağlıdır. Azərbaycan dövləti ədəbiyyatımız musiqimiz, incəsənətimiz, tarixi abidələrimiz, doğma Azərbaycan dilimiz kimi möhkəm mənəvi əsaslar üzərində qurulmuşdur.

Bu məhəbbəti, torpağa, ədəbiyyata sevgini A. Dadaşov adına şəhər 5 saylı tam orta məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi Leyla Nəcəfovanın şagirdlərlə hazırladığı "Tariximiz, ədəbiyyatımız. musiqimiz" adlı ədəbi - bədii gecədə gördük, onun şahidi olduq.



Şagirdlərin İ. Əfəndiyevin "Xurşudbanu Natəvan", S. Vurğunun "Vaqif", M.F.Axundzadənin "Hekayəti - Müsyö Jordan və dərviş Məstəli Şah", N.Vəzirovun "Müsibəti - Fəxrəddin", S.S.Axundovun "Tamahkar" əsərlərindən hazırladıqları səhnələr tamaşaçılar tərəfindən alqışlarla qarşılandı. Vüqar Teymurov, Flora Nəzirova, Sadiq Hüseynov, Yunis Əhmədov və Elxan Məmmədovun yüksək aktyorluq məharəti hamını heyrətləndirdi.

Musiqi müəllimi Ülkər İmanovanın rəhbərliyi ilə özfəaliyyət dərnəyinin üzvlərinin oxuduğu musiqi nömrələri, söylədiyi şeirlər tamaşaçılarda gözəl əhval - ruhiyyə yaratdı.

***Elnarə Hüseynova,***  
***şəhər 5 saylı tam orta məktəbin Uşaq birliyinin rəhbəri***

*Meyniman kəndi rayonumuzun münbit torpaqlı ərazilərindən biridir. Kür çayının suyundan vaxtlı-vaxtında suvarılan bu torpaqlarda taxıl, bostan bitkilərindən başqa ikinci mövsümdür ki, pambıq da əkilir. Düzdür, bu kənd vaxtilə pambıqçılıqla məşğul olub, dövlətə hər il tonlarla pambıq təhvil verilib. Lakin uzun zamandan bəri pambığa münasibət dəyişdiyindən Meynimanda da bir neçə ildir ki pambıq əkilib becərilmirdi. Artıq ikinci ildir ki, kənddə torpaq mülkiyyətçiləri pambıq əkinlərinə başlamışdır.*

lışaraq becərmə işlərini lazımı ardıcıllıq və keyfiyyətlə aparırlar. Dövlət Başçısı bu yaxınlarda pambıqçıların Saatlıda keçirilən ümumrespublika müşavirəsində, eləcə də cari ilin I rübünün yekunlarına həsr olunmuş müşavirədə pambıqçılığı inkişaf etdirməyin zəruriliyini, ölkənin iqtisadi qüdrətinin artırılmasında pambıqçılığ-

# Pambıqçılığa maraq kütləvi hal alır

Natiq Dostalıyev Kolanı kəndində yaşasa da, Meyniman kəndində 70 hektar ərazidə pambıq əkir. O, hazırda çiyid səpini ilə məşğuldur. 60 hektar sahədə əkin işlərini MKT Sabirabad İtehsalat Kommersiya Şirkəti ilə, 10 hektar ərazidə gördüyü işləri "Hacıqabul" MMC ilə bağladığı müqavilə əsasında görür. Fərdi təsərrüfat sahibi olan Natiq Dostəliyevə məxsus ərazidə torpağın əkinə hazırlanması aqrotexniki tədbirlərə əməl olunmaqla aparılmışdır. Sahələr arata qoyulmuş, əkin aparılacaq sahələr normal rütubətdə saxlanmışdır. Bildiyimiz kimi pambığın optimal müddətdə əkini aprel ayının ikinci ongünlüyü ərəfəsinə düşür. Pambıq bitkisi normal su və optimal istilik (12-14 S) tələb edən bitkidir. Bütün bunları nəzərə alan Natiq Dostəliyev hazırda müasir səpin aqreqatları ilə əkin yerində pnevmatik üsulla səpin aparır. Səpin işlərini aqrotexniki tələblər səviyyəsində aparan təcrübəli təsərrüfatçı bildirir ki, yaxın müddətdə sahələrdə normal çıxış alınmasına nail olacaq. Bitkilərdə normal rütubəti saxlamaq, torpaqları əkinə yararlı hala gətirmək üçün kultivasiya işini keyfiyyətli şəkildə aparacaqdır.

Meyniman kəndində 165 hektar ərazidə 9 istehsalçı pambıq əkmişdir. Fərrux Mirsıxanov 20 ha, Zərbəliyev Yengibar 10 ha, Vəli Ələkbərov 20 ha, Mansur Cəfərov 20,5 ha, Zahid Məmişov 7 ha, Famil Cəfərov 4 ha, Cavid Vəliyev 10 ha, Ağaqardaş Mürvətov 3,5 ha sahədə çiyid səpinini müvəffəqiyyətlə aparmışlar. Cari mövsümdə Hacıqabul rayonu üzrə 1204 hektar ərazidə pambıq əkilməsi planlaşdırılmışdır.

Padarda 605 ha, Qarasuda 241 ha, Abdulabadda 38 ha, Ələtlidə 155 ha sahədə çiyid səpini uğurla həyata keçirilir. Rayonumuzun pambıq istehsalçıları möhtərəm Prezidentimiz cənab İlham Əliyevin pambıqçılığın inkişafına böyük diqqət yetirdiyinə, bu sahəyə önəm verdiyinə və qayğı göstərdiyinə görə öz işlərində daha məsuliyyətlə çaın yüksək yerini bir daha qeyd etmişdir:

-"Pambıqçılığın inkişafı sürətlə gedir. Bu rəqəmlər artıq bir neçə dəfə səslənib, bir daha səsləndirmək istəyirəm ki, 2015-ci ildə 35 min ton, 2016-cı ildə 90 min ton pambıq tədarük olunub. Hesab edirəm, bu il ən azı təqribən 250 min ton pambıq tədarükü gözlənilir. Əgər bu templə getsək, biz 3-4 ilə təqribən 400-500 min ton pambıq istehsal edəcəyik. "

Göründüyü kimi ölkə Prezidenti qarşıdakı illərdə də pambıq istehsalını genişləndirməyi, pambıq tədarükünü artırmağı kənd əməkçiləri qarşısında bir vəzifə olaraq qoymuş və onlara tövsiyyə etmişdir. Rayonumuzun pambıq istehsalçıları bu tapşırıq və tövsiyyələrə uyğun olaraq sahələrdə çiyid səpinini yüksək keyfiyyətlə optimal müddətdə aqrotexniki tələblər səviyyəsində aparır, gələcək bol məhsulun təməlini qoyurlar.

**Nazim Fətixanoğlu**

# Həmyerlimizlə görüş



*Bu günlərdə rayon Mədəniyyət Mərkəzinin və Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 19 saylı Qarasu kənd kitabxana filialının təşkilatçılığı ilə xanəndə həmyerlimiz, "Qızıl buta" mükafatı laureatı Maya Cəbrayılova ilə görüş keçirilmişdir.Tədbiri açan Sabirabad regional Mədəniyyət və Turizm İdarəsinin rayon üzrə nümayəndəsi Elnur Əmiraslanov qonaqları salamlamış, həmyerlimiz haqqında qısa məlumat vermişdir. Sonra söz musiqiyə verilmiş,*

Maya xanımın ifasında "Segah", "Şur", "Çahargah" və "Bayatı-Şiraz" təsnifləri, eləcə də "Yaşa Azərbaycan!" mahnısı tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır.

Canlı ifalar zamanı xanəndəni tarda Özal Məmmədxanlı, kamançada Elmar Ələkbərli, nağarada isə Səftər Məmmədov müşayiət etmişdir.Meyniman kənd məktəbinin müəllimi Qara Əhmədov, Bakı şəhəri YAP Nərimanov rayon təşkilatının şöbə müdiri Nizami Babaşov, "Əsrin ziyalıları" jurnalının baş redaktoru, eyni adlı cəmiyyətin sədri Məleykə Göyçəli, müstəqil "Mədəni İrs" qəzetinin təsisçisi Mübariz Xəlilov, Maya xanımın həmkəndlisi Seyidzadə Muxtarov çıxış edərək müğənni ilə bağlı xoş təəssüratlarını bildirmişlər.

**Elmira İbrahimova,**
**şəhər Mərkəzi kitabxanasının şöbə müdiri**

# "İslam Həmrəyliyi İli" və IV İslam Həmrəyliyi oyunları ilə əlaqədar sərgi

*Ulu öndər Heydər Əliyev deyirdi,"islam dini bizi heç vaxt işğalçılığa, qəsbkarlığa sövq etməmişdir. Biz sülhsevər millətik. Bizim dinimiz də insanlara dostluq, qardaşlıq, sülh, barışıq yolu göstərmişdir. Biz həmişə bu yolla getmişik". Bu gün də ulu öndərin ideyaları əsasında inkişaf edən Azərbaycanda tolerant və multikultural mühit daha da möhkəmlənib, hətta Prezident İlham Əliyevin uğurlu daxili siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Buna görə də heç də təsadüfi deyildir ki, Multikulturalizm ilinin davamı olaraq Prezidentimiz 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etmişdir və ölkədə hazırda IV İslam Həmrəyliyi oyunlarına hazırlıq gedir.*



Bu günlərdə "İslam Həmrəyliyi İli" və IV İslam Həmrəyliyi oyunları ilə bağlı rayon Heydər Əliyev Mərkəzində sərgi nümayiş olunmuş və müsabiqə elan olunmuşdur. Sərgidə İslam dininin atributları, Mərkəzin rəsm kursunun və həvəskar rayon gənclərinin rəsmləri nümayiş olunurdu. Hazırda Mərkəzin rəsm kursunun üzvləri müsabiqə üçün yeni rəsmlərin üzərində işləyirlər. Sərgi may ayının sonuna qədər davam edəcək. Sərgidəki eksponatlar mütəmadi olaraq yenilənir. Sərgi Mərkəzə gələnlərin böyük marağına səbəb olur. Mərkəzdə sərgiyə tamaşa edənlərə "İslam Həmrəyliyi İli" və IV İslam Həmrəyliyi oyunları haqqında geniş məlumat verilir.

**Aytən Zülfəliyeva,**
**rayon Heydər Əliyev Mərkəzinin direktoru**

# Narkomaniyaya yox deyək!

**Rayon Heydər Əliyev Mərkəzində "Narkomaniyaya yox deyək!" adlı tədbir keçirildi.**

Rayon Gənclər və İdman İdarəsi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə rayonun bir sıra təşkilatlarının və pedaqoji kollektivlərinin nümayəndələri iştirak edirdilər.

Əvvəlcə Mərkəzdə "Narkomaniyanın cəmiyyətdə törətdiyi fəsadlar" mövzusunda müsabiqə üçün çəkilmiş şəkillərin sərgisinə tamaşa edildi. Sonra Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlar və Mərkəzdə İslam Həmrəyliyi İli ilə əlaqədar açılmış sərgi barədə məlumat verildi. Mərkəzin Kino zalında davam etdirilən tədbirdə rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Bəsti Zərbəliyeva narkomaniyanın fəsadları barədə məlumat verdi. Sonra Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov və Heydər Əliyev Mərkəzinin baş fond mühafizi Bahar Abasova geniş məruzə ilə çıxış etdilər. Çıxışlardan sonra "Hədəf" sənədli filmi nümayiş olundu. Tədbirin sonunda narkomaniyaya həsr olunmuş müsabiqənin qalibləri rayon Gənclər və İdman İdarəsinin Diplom və qiymətli hədiyyələri ilə mükafatlandırıldı.

# Mal-qara və quşların uçotu başa çatmışdır

***Azərbaycan Respublikası regionlarının inkişaf etdirilməsi ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir.2004-cü ildən başlayaraq həyata keçirilən məqsədyönlü dövlət proqramlarının davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli, 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" nın icrası ölkədə iqtisadiyyatın, o cümlədən, qeyri-neft sektorunun dayanıqlı inkişafına, regionlarda sosial infrastrukturun və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına təkan vermişdir.Bununla əlaqədar olaraq Hacıqabul rayonunda da kənd təsərrüfatı sahəsinin inkişafı üzrə müvafiq işlər və tədbirlər həyata keçirilir.***

Hacıqabul Rayon Statistika İdarəsi tərəfindən 01.01.2017-ci il tarixə rayonun ərazisində yerləşən fermer və əhali təsərrüfatlarında mövcud olan mal-qara və quşların baş sayını müəyyən etmək üçün sayıcıların seçilməsi təşkil edilmişdir.Seçilmiş sayıcıların siyahısı Hacıqabul Rayon İcra Hakimiyyəti başçısının 13 dekabr 2016-cı il tarixli 176 saylı sərəncamı ilə təsdiq olunmuşdur.Rayon üzrə uçotun aparılması məqsədilə Statistika İdarəsi sayıcılar üçün mal-qara və quşların uçotunun keçirilməsi ilə bağlı geniş təlimatı müşavirə keçirmişdir. Uçot aparılan zaman sayıcılarla mütəmadi əlaqə saxlanılmış və onlara müvafiq tövsiyələr verilmişdir.

Kənd təsərrüfatının rayonumuz üçün xarakterik iri sahələrindən biri də heyvandarlıqdır. Hacıqabul rayonunda aparılan aqrar islahatların uğurla həyata keçirilməsi kənd təsərrüfatının dinamik şəkildə inkişaf etdirilməsinə və bu sahədə ildən-ilə yüksək nailiyyətlərin əldə edilməsinə möhkəm zəmin yaratmışdır.2016-cı ildə rayon ərazisində mövcud olan mal-qara əsas etibarilə əhali və fermer təsərrüfatlarında cəmlənmişdir.Rayonda mal-qaraya lazımi qulluğun təmin edilməsi işinə geniş imkan yaradılmış və son nəticədə malqaranın məhsuldarlığının artması müşahidə olunmuşdur.

01.01.2017-ci il tarixə aparılan uçot zamanı rayon üzrə iri buynuzlu mal-qaranın sayı 38414 baş olmuşdur.İri buynuzlu mal-qaranın baş sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz və ya 595 baş artmışdır.Rayonda mövcud olan mal-qaranın 1487 başı fərdi sahibkarlarda, 36927 başı isə ailə-kəndli və ev təsərrüfatlarında qeydə alınmışdır. Rayonun təsərrüfatlarında inək naxırının sayı 35247 baş, o cümlədən fərdi sahibkarlarda 1202 baş, ailə-kəndli və ev təsərrüfatlarında isə 34045 baş olmuşdur.Ötən illə müqayisədə rayonun təsərrüfatlarında inək naxırının sayı 711 baş və ya 2,0 faiz artmışdır.Təsərrüfatlarda camış naxırının sayı 3167 baş, o cümlədən fərdi sahibkarlarda 285 baş, ailə-kəndli və ev təsərrüfatlarında isə 2882 baş olmuşdur.

İlin sonuna fərdi sahibkar təsərrüfatlarında qoyunların sayı 5292 baş, ailə-kəndli və ev təsərrüfatlarında isə 116063 baş qeydə alınmışdır.Ümumilikdə rayon üzrə bütün təsərrüfatlarda qoyunların sayı 121355 baş olmuşdur.Ötən ilin müvafiq dövrü ilə müqayisədə rayonun təsərrüfatlarında qoyunların sayı 758 baş və ya 0,6 faiz artmışdır.Mal-qara uçotunun sonunda rayonun təsərrüfatlarında 14601 baş keçi qeydə alınmışdır ki, bunun da 13982 başı ailə-kəndli və ev təsərrüfatlarında, 619 başı isə fərdi sahibkarlardadır.Ötən ilin müvafiq dövrü ilə müqayisədə rayonda təsərrüfatlarda keçilərin sayı 360 baş və ya 2,5 faiz artmışdır.Rayon təsərrüfatlarında ümumilikdə xırda buynuzlu mal-qaranın sayı 135956 baş qeydə alınmışdır. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 1118 baş və ya 0,8 faiz artım deməkdir.

Rayon üzrə təsərrüfatlarda atların sayı 608 baş, dəvələrin sayı 14 baş, eşşəklərin sayı 303 baş olmuşdur.Ötən illə müqayisədə müvafiq olaraq atların sayı 34 baş və ya 1,2 faiz çox, eşşəklərin sayı 20 baş və ya 7,0 faiz çox, dəvələrin sayı 1 baş və ya 7,7 faiz çox olmuşdur.

Rayonda bütün təsərrüfat kateqoriyaları üzrə quşların sayı 3414135 baş qeydə alınmışdır. Kənd təsərrüfatı sahəsində quşçuluq müəssisələrində quşların sayı 2677203 baş olmuşdur ki, onlardan da 1530596 başı yaşlı, 1146607 başı isə cavan quşlardır.Fərdi sahibkar təsərrüfatlarında quşların sayı 29670 baş, ailə-kəndli və ev təsərrüfatlarında isə 707262 baş qeydə alınmışdır.Ümumilikdə fərdi sahibkarlar, ailə və kəndli fermer təsərrüfatlarında cəmi 736932 baş quş uçota alınmışdır.Keçən illə müqayisədə fərdi sahibkarlar, ailə və kəndli-fermer təsərrüfatlarında quşların sayı 1915 baş və ya 0,3 faiz artmışdır.

Rayon üzrə iri buynuzlu mal-qaranın 29,7 faizi, o cümlədən ana inək və camışların 21,3 faizi, qoyun və keçilərin 23,2 faizi, quşların 3,5 faizi şəhər yerlərində olan təsərrüfatlarda qeydə alınmışdır.Rayon üzrə iri buynuzlu mal-qaranın 70,3 faizi, o cümlədən, ana inək və camışların 78,7 faizi, qoyun və keçilərin 76,8 faizi, quşların isə 96,5 faizi kənd yerlərində olan təsərrüfatların payına düşür.

Rayonda heyvandarlıq sahəsindəki artım göstəriciləri əsasən əhalinin fərdi təsərrüfatları hesabına formalaşmışdır.İl ərzində heyvanların baş sayında olan artım göstəriciləri ayrı-ayrı kənd inzibati ərazi dairələri üzrə də müşahidə olunmuşdur.Rayon üzrə mal-qara və quşların baş sayında müşahidə olunan artım heyvandarlıq sahəsindəki iqtisadi göstəricilərin, eləcə də, kənd təsərrüfatı sahəsindəki ümumi məhsul buraxılışının artımına təsir göstərmişdir.

**Rayon**
**Statistika İdarəsi**

# HACIQABUL

№ 07 (666) 29 aprel 2017-ci il


## 2017-ci il may ayı üçün Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatında vətəndaşların qəbul günləri

| Vəzifəsi | Həftənin günləri | Saat |
|---|---|---|
| İcra Hakimiyyətinin Başçısı | I | 15:00 |
| İcra Hakimiyyəti Başçısının birinci müavini | II | 14:00 |
| Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | III | 14:00 |
| Başçının müavini-İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri | IV | 14:00 |
| Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanı ilə iş şöbəsinin müdiri | V | 14:00 |
| Memarlıq və tikinti şöbəsinin müdiri | VI | 10:00 |

**Qeyd: Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları:** (02120) 4-41-91, (02120) 4-41-58

## Müəllimlər arasında şahmat yarışı keçirildi



***Respublikamızın bütün reqionlarında olduğu kimi doğma Hacıqabulumuzda da xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş tədbirlər keçirilir.***

Bu günlərdə TİAHİ rayon komitəsi və rayon UGŞİM-i (Uşaq Gənclər Şahmat İdman Məktəbi) ulu öndərin ildönümünə həsr olunmuş müəllimlər arasında şahmat yarışı keçirdi.

Uşaq Gənclər Şahmat İdman Məktəbində keçirilən yarışda iştirak etmək üçün rayonun ümumtəhsil məktəblərindən 14 nəfər müəllim qoşulmuşdu. Gərgin oyunlardan sonra III yerin qalibi şəhər 3 saylı məktəbin hərbi rəhbəri Elşən Heydərov, II yerin qalibi Ağacanlı kənd tam orta məktəbin direktoru Bilal Bağırov, I yerin qalibi isə Abdulabad kənd tam orta məktəbinin direktoru Budaq Cəfərov oldu və Bakı şəhərində keçiriləcək respublika yarışına vəsiqə qazandı.

Qaliblər TİAHİ rayon komitəsi tərəfindən Diplom və qiymətli hədiyyələrlə mükafatlandırıldı.

*Kifayət Əmirbəyova,*
*TİAHİ rayon komitəsinin sədri*

## "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz"i necə əldə etməli?

***"Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz"i əldə etməyin iki üsulu vardır. Onlardan biri - daha asanı vergi orqanına getmədən internet vasitəsiləelektron qaydada müraciət etməklə qəbzin alınması, digəri isə - ənənəvi qaydada vergi orqanına, yəni vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə qəbzin alınması imkanıdır.Bu imkanlardan necə istrifadə etmək olar?***

**I.Qəbzin elektron qaydada əldə edilməsi**

Elektron qaydada müraciət etmək üçün Vergilər Nazirliyinin İnternet Vergi İdarəsinə (www.e-taxes.gov.az <http://www.e-taxes.gov.az/>) daxil olub Giriş düyməsi sıxılır və istifadəçi kodu, şifrə, parol (və ya ASAN İmza, e-İmza məlumatları) daxil edilməklə "Onlayn kargüzarlıq" bölməsi keçid edilir (1).

"Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz"in alınması üçün ərizənin elektron göndərilməsi üçün Yeni müraciətdüyməsi sıxılır (2) və açılan pəncərədə aşağıdakılar seçilir (3):

- "Kimə" siyahısından - Vergilər Nazirliyi
- "Müraciətin növü" siyahısından - Ərizə
- "Sənədin növü" siyahısından - Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz.

Qəbul düyməsi (4) sıxıldıqda ərizənin elektron forması açılır və bu halda vergi orqanının adı, vergi ödəyicisinin adı və VÖEN-i avtomatik əks olunur. Sonra ərizə aşağıdakı ardıcıllıqla doldurulur:

- Fəaliyyət növünün adı seçilir (5)
- Fəaliyyətin həyata keçirildiyi ərazi seçilir (6)
- Fəaliyyət göstərəcəyi dövr seçilir (7)
- Dövrün başlama tarixi daxil edilir (bitmə tarixi seçilmiş dövrə uyğun olaraq avtomatik müəyyən olunur)
- İrəli düyməsi sıxılır (8).

**1. Naçalo formı**

Ərizəyə daxil edilmiş məlumatların yoxlanılması üçün növbəti təsdiqləmə ekranı açılır. Bu ekranda ödənilməli sabit vergi məbləği əks olunur (9). Bu zaman məlumatların doğruluğuna əmin olduqda ekranın aşağı sol hissəsindəki "Tanış oldum, məlumatların doğruluğunu təsdiq edirəm" xanası (10) işarələnir, sonra təsdiqləmək üçün Qəbul düyməsi (11), əks halda İmtinadüyməsi (12) sıxılır.

Qəbul düyməsi sıxıldıqda ekrana Məbləği ödə pəncərəsi (13) açılır.

Ödədüyməsi (14) sıxılmaqla Hökümət Ödəniş Portalına (15) keçid edilir. Portalda ödəniş kartının məlumatları daxil edilməklə real vaxt rejimində ödəniş həyata keçirilir. Məbləğ ödənildikdən sonra açılan pəncərədə Çap düyməsi (16) sıxılmaqla ödənişi təsdiq edən qəbzi çap etmək imkanı olur.

Bu pəncərədə Son düyməsini (17) sıxdıqda ekrana sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi barədə qəbzin alınması haqqında Bildiriş (18)ekrana çıxır. Bununla da vergi ödəyicisi "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz"i rəsmi olaraq əldə etmiş olur.

Ödəyici tərəfindən göndərilən elektron ərizə "Onlayn kargüzarlıq" bölməsindəki (elektron qutudakı) Göndəriklərim qovluğunda, vergi orqanı tərəfindən hazırlanan "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" isə Gələnlər qovluğunda əks olunur.

**II.Qəbzin kağız formasında əldə edilməsi**

Qəbzin xidmət mərkəzlərinə müraciət etməklə kağız formasında əldə edilməsi üçün:

**1-ci addım.** Fiziki şəxs öz seçiminə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün sadələşdirilmiş vergi üzrə sabit verginibanka,poçtavə ya ödəniş terminalınaödəyir və ödəniş sənədini (qəbz, çek və s.) əldə edir.

- Vergi məbləği "114327 - Digər fiziki şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi" təsnifat kodu üzrə ödənilməlidir.
- Ödəniş sənədində fiziki şəxsin VÖEN-i göstərilməlidir.

**2-ci addım.** Şəxs qeydiyyatda olduğu və ya fəaliyyət göstərdiyi əraziyə yaxın olan vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət edir (gəlir).

- Vergi orqanının əməkdaşınaöz şəxsiyyət vəsiqəsini vəödəniş sənədini təqdim edir.
- Vergi orqanının əməkdaşının köməkliyi ilə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında Qəbzin alınması üçün ərizə"ni <http://www.taxes.gov.az/uploads/2017/sabit/erize.xlsx> doldurur.

**3-cü addım.** Ərizəqəbul edildikdən sonraxidmət mərkəzinin əməkdaşı tərəfindənsənədlərin düzgünlüyü yoxlanılır, heç bir uyğunsuzluq olmadıqda Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzdərhal hazırlanaraq möhürlə təsdiqlənməklə vergi ödəyicisinə təqdim edilir.

**QEYD:**

- Fəaliyyətini "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" almaqla həyata keçirən fiziki şəxslər bu fəaliyyətə görə vergi orqanına bəyannamə təqdim etmirlər.
- fiziki şəxslər müəyyən edilmiş fəaliyyət novlərindən bir necəsi ilə məşğul olduğu halda "Sabit verginin odənilməsi haqqında qəbz"i hər bir fəaliyyət növüüçün ayrılıqda almalıdırlar.

## 70 yaşın mübarək, Oqtay müəllim!



***Bayramov Oqtay Səttar oğlu 1947-ilin aprel ayında Eçmədzin rayonunun Aşağı Necili kəndində dünyaya göz açmışdır.***

1965-ci ildə 7-illik məktəbi bitirdikdən sonra bir il istehsalatda işləmişdir.

1966-cı ildə Həsən bəy Zərdabi adına Kirovabad ( indiki Gəncə şəhər ) Dövlət Pedaqoji İnstitutunun biologiya fakultəsinə daxil olmuş, 1970-ci ildə həmin ali məktəbi bitirərək təyinatla Əli-Bayramlı ŞXMŞ-nin (indiki Şirvan şəhəri) sərəncamına göndərilmiş və Qazıməmməd şəhər 7 nömrəli səkkizillik məktəbinə biologiya müəllimi təyin olunmuşdur. Elə o vaxtdan da Oqtay müəllim öz taleyini Qazıməmmədlə (indiki Hacıqabulla) bağlamışdır.

1971-1972 -ci illərdə ordu sıralarından qayıtdıqdan sonra Oqtay müəllim əmək fəaliyyətini şəhər 5 saylı (indiki 1 saylı) orta məktəbində biologiya müəllimi kimi davam etdirmişdir. Elə ailə həyatını da məktəbin müəllimi Zemfira İsayeva ilə burada qurmuşdur.

2004-cü ildən Oqtay müəllim Şahmat Məktəbində məşqçi-müəllim işləyir.

70 illik yubileyini qeyd etmək üçün onun müəllim yoldaşları Şahmat Məktəbinə yığışmışdılar. Çay süfrəsi arxasında davam edən tədbir Oqtay müəllimi çox uzaqlara, gənclik illərinə apardı. Sonda yubilyar Fəxri Fərman və qiymətli hədiyyələrlə təltif olundu.

*K.Əmirbəyova*

### Bu sevgi

Yağış yudu apardı,
Əsən külək qopardı.
Hamı onu sorardı,
Hara qondu bu sevgi?

Geriyə yol qoymadı,
Ondan ürək doymadı.
Mənim yarım olmadı,
Heç oldu, heç bu sevgi.

Dayanıb ovunmadı,
Heç nəylə aldanmadı.
Bu ocaq qalanmadı,
Gec oldu, gec bu sevgi.

Sən deyən düz olmadı,
Möhkəm sevgi qalmadı.
Göy üzünə qalxmadı,
Yerdə dondu bu sevgi.

Ümüd susub dayandı,
Hər tərəfim tufandı.
Uydurmadı,yalandı,
Öldü,öldü bu sevgi.

### Sevmək nədir?

Dedilər sevmək nədir?
Dedim gözəl yaşamaq.
Verilən pay ömrünü,
Biri ilə paylaşmaq.

Dedilər xəyal nədir?
Aldatmaqdır özünü.
Fikirlərə qərq olub,
Yola dikmək gözünü.

Dedilər könül nədir?
Ürək, sinəmdə vurur.
Sevgiləri yaşadır,
Gözəl xəyallar qurur.

Dedilər ölüm nədir?
Sonudur hər bir şeyin.
Bitmişdir bu dünyada,
Sevincin, dərdin, qəmin.

*Hədiyyə Sabirqızı,*
*AYB-nin üzvü,*
*"Qızıl Qələm" mükafatı laureatı*

## Elan

Rayon Aqrar İslahat Komissiyasının 1997-ci il 20 noyabr tarixli qərarı ilə Rüstəmova Firuzə Safalı qızının adına verilmiş JN-0036, kodu 91003038 olan torpağın mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən 18.02.2005-ci ildə Hacıqabul rayon Əhalinin Sosial Müdafiə Mərkəzinə (VÖEN 8100046291) verilmiş Vergi ödəyicisinin uçota alınması haqqında Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.


**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200